UOT 338.439

*Səxavət Saleh oğlu HEYDƏRLİ*
*doktorant, Naxçıvan Dövlət Universiteti*
*sakhavat.heydarli2022@gmail.com*

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** ərzaq təhlükəsizliyini sadəcə bir fenomen olaraq araşdırmaqla kifayətlənməmək və həlli üçün faydalı ola biləcək təklifləri irəli sürərək bu qlobal məsələnin araşdırılmasında rol oynamaqdan ibarətdir.

**İşin metodologiyası -** müqayisəli təhlil apararaq ərzaq təhlükəsizliyində rol oynayan faktorların əhəmiyyətinə görə dəyərləndirilməsindən, analiz edilməsindən və əldə olunan nəticələrin qiymətləndirilməsindən ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** ondan ibarətdir ki, ərzaq təhlükəsizliyinin təmin olunması üçün yollar təklif edir, hansı ki, ərzaq təhlükəsizliyi özündə bütün bəşəriyyəti narahat edən ərzaq və ərzaq məhsullarına çıxışda yaranan çətinliklərin səbəb ola biləcəyi qlobal probelmləri də ümumiləşdirir.

**Tədqiqatın nəticələri -** göstərir ki, digər sosial, iqtisadi, siyasi məsələlər kimi ərzaq təhlükəsizliyi də hərtərəfli həllər yolunun təklif olunmasını və onun tətbiq olunmasını tələb edərək bu gün və gələcək üçün xüsusi əhəmiyyət kəsb edir ki, bu da məsələnin tədqiqinə olan ehtiyacın görünəndən daha çox olduğunu deyir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** ərzaq təhlükəsizliyinə sadəcə olaraq statistiki bir məsələ kimi baxılmamış, onu sosial, demoqrafik - yaş, və s. kimi digər aspektlərdən təhlil edərək bu aspektlərin önəmini vurğulayır və sahələrdə hal-hazırda mövcud olan və ya gələcəkdə olması gözlənilən problelmlər üçün həllər təklif edir.

***Açar so'zlər: ərzaq, təhlükəsizlik, ərzaq təhlükəsizliyi, aclıq, sosial, iqtisadi, həll yolları, çətinliklər, problemlər, sosial-qitisadi, iqtisadi-sosial***

## *Giriş*

Ərzaq təhlükəsizliyi, ona son zamanlarda daha çox diqqət ayrılsa da bəşəriyyət üçün yeni bir məsələ deyildir. Aclıq, səfalət, qeyri-sağlam qidalanma ərazq təhlükəsizliyi üçün təhdid hesab edilə biləcək problemlərin başında gəlir.

Bu sahədə gedən akademik müzakirələrin azlığı və qeyri-tamlığı, aparılan tədqiqat və araşdırmaların uzun illər boyunca qeyri-adekvat olması problemin dərinləşməsinə səbəb olan əsas amillərdən hesab edilsə də bu sahədə dövlət siyasətinin və beynəlxalq agentliklərin fəaliyyətinin zəif olmasının rolunu unutmaq olmaz.

Təsadüfi deyil ki, əksər iqtisadi böhranlar özünü ərzaq məhsullarının qiymətindəki artımla büruzə verir. Böhranlara əlavə olaraq iqlim dəyişikliyinin, qlobal istiləşmənin, susuzluqdan əziyyət çəkən yerlərin sayının və ərazisinin artmasının və bunun nəticəsində də səhralaşma prosesinin sürətlənməsinin fəsadlarını əgər adekvat tədbirlər görülməzsə gələcək onillikdə ağır şəkildə görəcəyik.

Ərzaq təhlükəsizliyi böyümə və inkişaf dövründə olan uşaqlar, hamilə qadınlar, ilk min günündə olan körpələr və onların anaları, xüsusi pəhrizə ehtiyacı olan xəstələr, ürək-damar xəstələri, yaşlılar və s. bu kimi insanlar üçün həyati bir əhəmiyyətə sahibdir. Adı çəkilən həmin bu qruplar qida təhlükəsizliyi təhlil və müzakirə olunan zaman qida təhlükəsizliyi məsələsində “həssas” sayıla biləcək qruplar hesab olunurlar və xüsusi aclığa səbəb ola biləcək təbii fəlakət, yanğın, zəlzələ, vulkan püskürməsi, tsunami, müharibə və toqquşmalar zamanı ərzaqla təmin olunan ilkin qruplar olurlar.

Ərzaq çatışmazlığının məkan, zaman, demoqrafik göstəricilərdən asılılığını düzgün və dəqiq analiz etmək problemin həllini də sürətləndirməyə töhfə verəcəkdir. Belə ki, relyefin rolunu diqqətdə saxlayaraq məsələyə baxıla bilər. Məsələn: dağlıq və dağətəyi ərazilərdə yetişdirməyin çətin olması səbəbi ilə əhalinin əlçatanlığında problemlər yaşanan qida məhsulları ilə quraq, səhralıq ərazilərdəki əhalinin çıxışının zəif olduğu məhsulları fərqləndirmək lazımdır.

Bu sahədə tədbirlər görülən zaman ərzaq çatışmazlığının ölçülə bilən meyarlara əsaslanaraq nəzərdən keçirilməsi vacibdir. Bunun üçün beynəlxalq təşkilatlar, hökumətlər və ətraf mühitin mühafizəsi ilə məşğul olan ayrı-ayrı şəxs və qurumlar birgə fəaliyyət göstərə bilərlər. Problemi həll etmək üçün bu günə qədər əldə olunan təcrübə göstərir ki, həm lazımi qanun layihələrinin qəbulu və tətbiqi, həm də insanların maarifləndirilməsi üçün bu kimi tərəflər arasında birlikdə fəaliyyətin əhəmiyyəti müstəsnadır.

Bir digər tərəfdən ərzaq təhlükəsizliyi məsələsinin bazardakı tələb və təklif arasındakı əlaqə baxımından təhlil olunmasıdır. Çünki alıcıların tələbinə cavab verməyəcək olan ərzaq və ərzaq məhsullarının istehsalı enerji, ərazi, kapital və bu kimi digər resursların səmərəsiz istifadəsi və insan əməyinin qarşılıqsız qalması ilə nəticələnə bilər.

Ev təsərrüfatlarının və ev təsərrüfatlarında istehsal olunan qida və qida məshullarının məsələnin gedişatındakı rolunu da təhlil etmək faydalı ola bilər. Çünki ev təsərrüfatlarının yaranması üçün də lazımi şəraitə və maddi təminatlara ehtiyac vardır. Bu ehtiyacların qarşılandığı və insanların rahatlıqla ev təsərrüfatı ilə məşğul ola bildiyi Şimali Avropa, xüsusən də Skandinaviya ölkələrində ərzaq təhlükəsizliyi məsələsinin daha rahat nəzarətdə saxlanıla bildiyini və problemin dərinləşmədən həllinin mümkünlüyünü görə bilərik. Bu qəbildən olan digər təcrübələrin də paylaşılması və bu sahədə mübadilənin artması çətinliyin aradan qaldırılmasında atılan addımların effektivliyini artıraraq prosesi sürətləndirəcəkdir.

**Ərzaq təhlükəsizliyi haqqında ümumi məlumat**

Ərzaq təhlükəsizliyinin ən geniş yayılmış və qəbul edilmiş tərifi 1996-cı ildə FAO tərəfindən qəbul edilərək 2001-ci ildə də təkmilləşdirilən və aşağıdakı şəkildə ümumiləşdirilən tərifdir:

*“Ərzaq təhlükəsizliyi – bütün insanların aktiv və sağlam həyat üçün onların pəhriz ehtiyaclarına və qida seçimindəki tələbatlarına cavab verən kifayət qədər, təhlükəsiz və faydalı qidaya hər zaman fiziki, sosial və iqtisadi çıxışı olduğu bir vəziyyətdir”.*

Ərzaq təhlükəsizliyinin əsasını təşkil edən 4 sütun ünsür mövcuddur ki, onları aşaıdakı şəkildə göstərə bilərik:

- qidanın mövcudluğu
- ərzaq məhsullarına əlçatanlıq
- ərzaq məhsullarının istifadəyə yararlılığı
- ərzaq məhsullarının həcmində, qiymətində, ərazi üzrə paylanmasında sabitiyin mövcud olması.

Ərzaq təhlükəsizliyi məsələsində bir digər vacib məqam da tədarükçülərlə bağlıdır. Çünki onlar əhalinin ərzaq və ərzaq məhsulları ilə təmin olunmasında əsas mənbə rolunda çıxış edirlər. Bu mənbələrlə bağlı diqqət yetirməli olduğumuz məsələləri isə bu şəkildə qruplaşdıra bilərik:

- ərzaq və ərzaq məhsullarının tədarükçüsü qismində çıxış edən bu mənbələrin fiziki olaraq mövcudluğu;
- tədarükçülər ilə istehlakçılar arasında əlaqənin nə qədər güclü olması - əlaqə zəif olduğu təqdirdə həm məhsullar tədarükçülərin əlində qalaraq xarab ola bilər, həm də alıcılar bazarda onların tələbatını ödəyə biləcək ərzaq və ərzaq məhsullarının varlığından xəbərsiz ola bilərlər. Birinci hal baş verərsə, yəni məhsullar tədarükçünün əlində qalarsa ya onu dəyərindən ucuz qiymətə satacaq, ya da növbəti dəfə həmin məhsulların istehalı və bazarda təklifini azaldacaq, və yaxud da ümumiyyətlə həmin məhsulların istehsalından və satışından imtina edəcəkdir və bu da məhsula çıxışı olan alıcılar üçün yeni tədarükçü axtarışına çıxmaq deməkdir. İkinci baş verdiyi halda isə istehlakçı öz ehtiyaclarını yerli bazar hesabına ödəmək əvəzinə ya daha çox xərc çəkərək həmin məhsulları xarici ölkə bazarlarından əldə edir, ya da ümumiyyətlə həmin məhsulların istehlakından

məhrum qalmış olur.

Əlində daha çox resursu və satış imkanları olan tədarükçülərin bütün bazara nəzarət edərək bazarı monopoliyalaşdırmağa çalışması da qaçınılmazdır. Burada iki əsas mərhələ gözlənilləndir:

- Birinci mərhələdə tədarükçü bazardakı alıcıların əksəriyyətini özünə cəlb etmək üçün məhsulun qiymətini hətta məhsulun maya dəyərindən də aşağıya salır və alıcıların böyük bir hissəsini özünə çəkərək digər rəqiblərini bazardan sıxışdırıb çıxardır. Bu siyasət dampinq siyasəti adlanır və bir sıra dünya ölkələrinin qanunvericiliyində qadağan edilmişdir. Çünki su, çörək kimi strateji və həyati əhəmiyyətə malik olan məhsullarda monopoliyanın yaranması gələcək üçün olduqca təhlükəlidir. Digər tərəfdən də resursların, sözügedən halda ərzaq və ərzaq məhsullarının istehsalı, tədarükü və satışı üçün lazım olan resursların ölçüsüz və nəzarətsiz istifadəsinə yol açan bu qiyməti endirmə siyasəti eyni zamanda ərzaq və ərzaq məhsullarının dünya əhalisi üzrə paylanmasındakı qeyri-bərabərliyi və ədalətsizliyi artırır.
- İkinci mərhələ ondan ibarətdir ki, bazarda demək olar ki başqa satıcı və istehsalçı qalmadığı üçün tədarükçünün əlində olan ərzaq və ərzaq məhsullarının qiymətində kəskin qiymət artımı yaşana bilər. Bununla da o, birinci mərhələ zamanında itirdiyi gəliri artıqlaması ilə geri qazanma şansını əldə etmiş olur.

İndi isə 1969-2010-cu illər arasında ərzaq və ərzaq çatışmazlığından əziyyət çəkən insanların sayını təsvir edən qrafikə nəzər salaq. Qeyd edək ki, qrafik dünya əhalizi üzrə bu tendensiyanın təsvirini verir.




Qrafikdən də göründüyü kimi 1969-2010-cu illər arasında Ərzaq çatışmazlığı məsələsindəki dəyişiklik heç də stabil qalmamışdır. Gözlənilən kimi 2008-ci ildə baş verən iqtisadi böhran öz növbəsində ərzaq və ərzaq məhsulları çatışmazlığından əziyyət çəkən insanların sayında da ciddi artıma səbəb olmuşdur.

**Ərzaq təhlükəsizliyi məsələsinin cins, yaş və digər demoprafik aspektlər nəzərə alınmaqla təhlili**

Dünya əhalisinin demək olar ki, yarısını təşkil etməsinə baxmayaraq iqtisadi fəal əhalinin ümumi sayında payı aşağı olan qadınların ərzaq və ərzaq məhsullarına çıxışında da ciddi problemlər var. Bu problemlərin nisbəti region və iqtisadi inkişaf nöqteyi-nəzərdən bir-birindən fərqlənən ölkələrdə müxtəlif şəkildə təzahür etməkdədir. Qadınların iqtisadi azadlığının daha çox təmin olunduğu və hüquqlarının nisbətən daha yaxşı müdafiə olunduğu inkişaf etmiş ölkələrdə qadınların ərzaq və ərzaq məhsullarına çıxışında əsrlərdir var olan əngəllər aradan qaldırılaraq qadınların ərzaq çatışmazlığı problemi həll edilir. Lakin eyni tendensiya dünyanın digər hissələrində - inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə görülmür.

Problemin regional, iqtisadi səbəbləri olduğu qədər inanc, adət-ənənə kimi tərəfləri də vardır. Bütün bunları nəzərə alaraq məsələnin həllini hədəfləyən beynəlxalq qurumlar bu məqamda aşağıdakı təklifləri irəli sürməkdədir:

➢ Qadınların təhsil hüququ ilə təmin olunmasında effektiv addımların atılması: təhsil alan qadınların sayında son illərdə ciddi artım müşahidə olunsa da təəssüf ki, problem öz aktuallığını qoruyub saxlamaqdadır. Çünki hələ də təhsil hüququndan məhrum olduğu üçün gələcəkdə də işlə təmin olunmada problem yaşaya biləcək qadınların sayı xeyli çoxdur. Bu tendensiya inkişaf etməmiş ölkələrdə xüsusilə ciddi vüsət almışdır. Rəqəmsal texnologiyaların inkişaf etdiyi 21-ci əsrdə bunun qarşının alınmasında bu texnologiyaların sayəsində ciddi addımlar atılmışdır. Lakin texnoloji yeniliklərə əlçtanlıqda problem yaşayan yerlərdə qadınların təhsil hüququndan məhrum edilməsi problemi dərinləşməkdə davam edir.

➢ İş yerlərində və işə qəbul zamanı qadınlara qarşı Pozitiv Ayrıseçkiliyin tətbiq olunması və dövlətlər tərəfinfən iş yerlərinin bu mənada təşviq edilməsi. Qeyri-bərabər və ədalətsiz rəqabətin qarşısını almaq və şərtləri bərabərləşdirərək qadınların iqtisadi azadlığının təmin olunmasında irəliləmək üçün Pozitiv Ayrıseçkiliyin rolu danılmazdır. Bunu uzun illərdir tətbiq edən inkişaf etmiş ölkələr hal-hazırda bu sahədə ciddi irəliləyişlərə nail olmuşlar.

Həmin ölkələrə aşağıdakılar daxil edilə bilər:

✓ Şimali Avropa
✓ Skandinaviya ölkələri
✓ Son zamanlarda Koreya və Yaponiya
✓ Amerika Birləşmiş Ştatları və s.

İş yerlərində və işə qəbul zamanı qadınların məruz qaldığı zorakılıq, qısnama və s. kimi halların qarşısını almaq üçün müəssisələrin həm özlərinin, həm də işçi heyətinin etik qaydalara əməl etməsini təmin etməklə qadınların iş yerlərində daha təhlükəsiz fəaliyyətini təmin etmək və bununla da əmək fəaliyyəti ilə məşğul olan qadınların təşviq edilməsinə nail olmaq olar.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınların həvəsləndirilməsi üçün xüsusi subsidiyaların və digər ödənişlərin tətbiqi və vergi ödəməsi zamanı ödənilən vergi məbləğində endirimlərin edilməsi sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınların sayının artmasına səbəb olacaqdır.

Yaş məsələsinin də ərzaq və ərzaq məhsullarına əlçatanlığında ciddi önəmi vardır. Bunu daha aydın görmək üçün müxtəlif yaş qruplarının qida və qida məhsullarına çıxışı zamanı qarşılaşdığı əngəlləri nəzərdən keçirdək:

- *0-5 yaş aralığındakı uşaqlar*: bu dönəmdə valideyndən fiziki olaraq çox asılı olduqları üçün valideynlərinin üzləşdiyi iqtisadi problemlər uşaqların qidalanmasına da ciddi təsir göstərir. Xüsusən də ana südü ilə qidalandıqları dövrdə ananın qidalanmasındakı problemlər və üzləşdiyi qida çatışmazlığı xüsusi önəm kəsb edir. Yuxarıda da qeyd olunan qadınların iqtisadi azadlığının zəif olması bu mərhələdə çox önəmlidir. Çünki təəssüflər olsun ki, öhdələrinə düşən ödənişləri verməkdən boyun qaçırtmaq üçün uşaqlı qadınların işə qəbulunda ciddi əngəllər yaradan işverənlər mövcuddur.
- *6-12 yaş aralığındakı uşaqlar* vitaminli qidalara daha çox ehtiyac duyurlar. Həyatlarının bu mərhələsində əldə edəcəkləri qida və qida tərkibindəki vitaminlər fərdlərin immumitetlərini gələcəkdə yoluxa biləcəkləri xəstəliklərə qarşı daha dözümlü edir. Göz və göz ətrafında yaranan problemlər, oynaq və sümüklərlə bağlı problemlər məhz bu yaşda yaşanan vitamin əksikliyindən qaynaqlana bilər.
- *13-18 yaş aralığında* bədənin inkişaf dövrü və yeniyetməliyə qədəm qoyulması özü ilə birlikdə qidalanmanın əhəmiyyətinin artmasını da gətirir. Bu yaş aralığında qeyri-sağlam və zərərli qidalara olan tələbat artır və nəticədə orqanizm zəifləmiş olur. Fast food və digər bənzər ayaqüstü yeməklərin həddən artıq istifadəsi gələcəkdə həmin şəxslərin sağlamlığında ciddi problemlər yaradır.
- *19-25 yaş aralığında və həyatın sonrakı dövrlərində* artıq qidalanmaya olan tələbatımız stabilləşməyə başlayır. Ona görə də bu stabilləşməni daha sağlam şəkildə həyata keçirtmək lazımdır.

*Digər demoqrafik aspektlərə gəldikdə isə* irq, din, milliyyət, etnik mənsubiyyət, dil kimi məsələlər hər nə qədər ilk baxışda önəmsiz kimi görünsə də böyük əhəmiyyət kəsb etməkdədir. Çünki qidalanma eyni zamanda insanların içində böyüyüb boya-başa çatdıqları cəmiyyətin vərdişləri ilə də sıx bağlıdır. Oturaq həyat tərzi sürməyə üstünlük verən cəmiyyətlərin mətbəxi, ağız dadı və qidalanma vərdişləri də buna uyğun olaraq formalaşır və beləliklə də həmin cəmiyyətdə yaşayan ayrı-ayrı fərdlərin ərzaq və ərzaq məhsullarına çıxışına da bu və ya digər şəkildə təsir göstərmiş olur.

Məsələn: qidalanmada daha çox dəniz məhsullarına üstünlük verən sahilyanı ölkələrə baxaq:

- Şərqi Asiya
- Cənub və Cənub-şərqi Asiya
- Latın Amerikasının okean sahilində yerləşən əraziləri
- Amerika Birləşmiş Ştatlarının sahilyanı əraziləri
- Kanada
- Afrika qitəsnin sahilyanı ərazilərində yerləşən ölkələri
- Avstraliya
- Skandinaviya ölkələri
- Avropanın sahilyanı əraziləri

Bu ölkə və regionların əhalisinin qidalanma rejimində dəniz məhsullarına ciddi tələbat vardır. Ona görə də bu bölgələrdə yaşayan əhali üçün ərzaq təhlükəsizliyi dedikdə dəniz məhsullarına çıxış daha çox önəmli olur.

**Ərzaq təhlükəsizliyini təmin etməyin yolları**

Ərzaq təhlükəsizliyini təmin etmək və gələcək nəsillərə bu səpkidə problemləri ötürməmək üçün qalıcı, davamlı, uzunmüddətli və effektiv həll yolları araşdırılmalıdır. Bunun üçün əvvəlcə ərzaq təhlükəsizliyinin ölçülə bilən meyarları müəyyənləşdirilməlidir. Bu zaman,

- Sorğuların keçirilməsi
- Statistiki məlumatların daha dərindən araşdırılması
- Yerində müşahidələrin həyata keçirilməsi
- Araşdırmaların dünya əhalisinin müxtəlif qrupları üzrə həmin qrupların xarakterik xüsusiyyətləri nəzərə alınmaqla aparılması
- Tədqiqatları daha dəqiq aparmaq üçün hər qrup üçün spesifik tədqiqat heyətlərinin yaradılması və s. kimi addımlar atıla bilər

Bu şəkildə ölçülə bilən meyarlar müəyyənləşdirildikdən sonra əldə olunan göstəricilər təhlil olunmalıdır. Göstəricilərin təhlili zamanı isə dəqiq, qərəzsiz, obyektiv və çevik olmaq faydalıdır. Təhlildən çıxarılan yekun nəticələr isə müzakirə olunmalı və problemlərin həlli üçün xüsusi tədbirlər planı hazırlanmalıdır. Bu tədbirlər planının tətbiqi isə ölkələrin müvafiq qurumları, beynəlxalq təşkilatlar, ətraf mühitin mühafizəsində maraqlı olan ayrı-ayrı şəxs və şirkətlər, eləcə də digər əhəmiyyətli tərəflər olmadan mümkün deyildir.

Resurslardan səmərəli istifadə etməyin təşviq edilməsi də bu mərhələdə həlledici rol oynaya bilər. Qənaətlə və eyni zamanda qida məhsullarından hərtərəfli istifadə edə bilməyin yolları öyrənildikcə bu problemin həlli yolunda daha qətiyyətli irəliləyişlər əldə ediləcəkdir.

Yuxarıda da qeyd edildiyi kimi ərzaq təhlükəsizliyinin təmin olunmasında uzunmüddətli və yüksəknəticəli təcrübəyə malik olan ölkələrin apardığı Ərzaq Təhlükəsizliyi Siyasəti nəzərdən keçirilməli və lazım gəldikdə təcrübələrin paylaşılması üçün ortaq hərəkət etməyə səy göstərilməlidir.

Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Səhiyyə Təşkilatı və s. kimi təşkilat və qurumlar bu məsələyə daha diqqətli yanaşaraq dünya birliyinin də diqqətini cəlb edə bilərlər. Heç şübhəsiz, belə olan halda daha effektiv nəticələr əldə etmək mümkün olacaqdır. Çünki hərtərəfli həll yolu tələb edən Ərzaq Təhlükəsizliyi eyni zamanda çoxtərəfli iştirak olduğu halda təmin edilə biləcək və hamını maraqlandırmalı olan qlobal əhəmiyyətli bir məsələdir.

Beynəlxalq Valyuta Fondunun uzun illər ərzində üzv ölkələrin iqtisadi vəziyyəti ilə əlaqədar əldə etdiyi məlumatlar, böhranlar zamanı dəstəyə ehtiyacı olan üzv ölkələrinə etdiyi yardımlar və bu sayədə yaranan əməkdaşlıq bu mövzuda da əhəmiyyətli olacaqdır.

### *Nəticə*

Həm geniş tədqiqat mövzusu, həm də ciddi tətbiqi təcrübə və bilik tələb edən ərzaq təhlükəsizliyi insanların daim istədikləri ərzaq və ərzaq məhsullarını hər hansı bir maneə ilə rastlaşmadan əldə edə bilməsi kimi başa düşülməklə bərabər eyni zamanda əldə olunan ərzaq və ərzaq məhsullarının kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin əhəmiyyətini özündə ehtiva edir.

Bu baxımdan məsələyə daha geniş aspektdən baxılmalı, ərzaq təhlükəsizliyi dövlətlərarası bir məsələ olaraq qiymətləndirilərək təmin olunmasının yolları təklif edilməlidir.

Haqlı olaraq geniş müzakirə və mübahisələrə səbəb ola biləcək bir mövzu kimi, Ərzaq Təhlükəsizliyi ciddi və detallı şəkildə öyrənilməli, bu sahədə bu gün və gələcək üçün prioritet ola biləcək məsələlər incələnməlidir. Çünki bəşəriyyətin gələcəyi üçün həlledici rol oynayan bu məsələdə edilən hər hansı bir diqqətsizlik, etinasızlıq nəinki bu gün və yaxın gələcəkdə, eyni zamanda uzaq gələcəkdə də ciddi fəsadlara yol aça bilər.

Demoqrafik göstəricilər, əhali vərdişləri, ölkə və regionların sosial-iqtisadi vəziyyətləri bu problemdə müstəsna əhəmiyyətə malik olan məsələlər kimi ələ alınaraq diqqətdə saxlanılmalı və məsələnin həllinə düzgün bir şəkildə inteqrasiya edilməsi üçün məsul şəxslərin və qurumların əlindən gələni etməsinə çalışılmalıdır.

### ƏDƏBİYYAT


1. https://www.nature.com/articles/s41538-018-0021-9
2. Culture and Food Security by Elena Briones Alonso, Lara Cockx, Johan Swinnen
3. https://royalsocietypublishing.org/doi/abs/10.1098/rstb.2005.1745
4. https://policycommons.net/artifacts/1421967/the-state-of-food-security-and-nutrition-in-the-world-2020/2036027/
5. Global Food Security: Challenges and Policies Mark W. Rosegrant and Sarah A. Cline
6. Food Security and Food Production Systems, Coordinating Lead Authors: John R. Porter (Denmark/UK), Liyong Xie (China)
7. Improving the Measurement of Food Security, Derek Headey Olivier Ecker, Poverty, Health, and Nutrition Division, Development Strategy and Governance Division
8. Rethinking food security for the 21$^{st}$ century, Walter P. Falcon and Rosamond L.Naylor
9. Abate, T., Huis, A. van, Ampofo, J.K.O., 2000. Pest Management Strategies in Traditional Agriculture: An African Perspective. Annual Review of Entomology 45, 631–659. https://doi.org/10.1146/annurev.ento.45.1.631
10. Abrahams, Z., Temple, N.J., Mchiza, Z.J., Steyn, N.P., 2016. A Study of Food Advertising in Magazines in South Africa. Journal of Hunger & Environmental Nutrition 0, 1–13. https://doi.org/10.1080/19320248.2016.1227757
11. Abuajah, C.I., Ogbonna, A.C., Osuji, C.M., 2014. Functional components and medicinal properties of food: a review. J Food Sci Technol 52, 2522–2529. https://doi.org/10.1007/s13197-014-1396-5
12. The World Bank Group, “Millennium Development Goals: About the Goals,” www.developmentgoals.org/About_the_goals.htm (2003).
13. ACF, 2010. Considering Culture in Nutrition and Food Systems: An innovative approach to reducing chronic child malnutrition, ACF Policy Brief
14. Adams, V., Miller, S., Chertow, J., Craig, S., Samen, A., Varner, M., 2005. Having A Safe Delivery: Conflicting Views from Tibet. Health Care for Women International 26, 821–851. https://doi.org/10.1080/07399330500230920
15. https://www.nature.com/scitable/knowledge/library/food-safety-and-food-security-68168348/

***Сахават Салех Гайдарли***
***Докторант, Нахчыванский Государственный Университет***
***sakhavat.heydarli2022@gmail.com***

**Направления повышения безопасности пищевых продуктов**

***Резюме***

**Цель исследования** состоит не в том, чтобы удовлетвориться простым изучением продовольственной безопасности как явления, а в том, чтобы сыграть роль в исследовании этой глобальной проблемы, выдвинув предложения, которые могут быть полезны для ее решения.

**Методология работы** состоит в оценке факторов, играющих роль в продовольственной безопасности, по их значимости, их анализе и оценке полученных результатов путем проведения сравнительного анализа.

**Прикладная значимость** исследования заключается в том, что в нем предлагаются пути обеспечения продовольственной безопасности, в которых обобщаются глобальные проблемы, которые может вызвать продовольственная безопасность, которые могут быть вызваны трудностями доступа к продуктам питания и продуктам питания, которые волнуют все человечество.

**Результаты исследования показывают**, что продовольственная безопасность, как и другие социальные, экономические и политические вопросы, имеет особое значение сегодня и в будущем, требуя комплексных решений для предложения и реализации, что говорит о том, что потребность в исследованиях более чем удовлетворяет глаз.

**Оригинальность и научная новизна исследования** показывают, что продовольственная безопасность является не просто статистической проблемой, а ее социальной, демографической - возрастной и т.д. анализируя его с других аспектов, он подчеркивает важность этих аспектов и предлагает решения проблем, которые в настоящее время существуют в областях или, как ожидается, возникнут в будущем.

***Ключевые слова: продовольствие, безопасность, продовольственная безопасность, голод, социальные, экономические, решения, трудности, проблемы, социально-экономические, экономико-социальные.***

***Sakhavat Saleh Heydarli***
***PhD student, Nakhchivan State University***
***sakhavat.heydarli2022@gmail.com***

**Directions for improving food safety**

***Summary***

**The aim of the study** is not to be satisfied with simply examining food security as a phenomenon and to play a role in investigating this global issue by putting forward proposals that may be useful for its solution.

**The methodology of the work** consists of evaluating the factors that play a role in Food Security by their importance, analyzing them and evaluating the results obtained by conducting a comparative analysis.

**The applied importance of the study** is that it suggests ways to ensure food security, which summarizes the global problems that food security can cause, which may be caused by difficulties in access to food and food products, which concern all mankind.

**The results of the study** show that food security, like other social, economic, and political issues, is of particular importance today and in the future, requiring comprehensive solutions to be proposed and implemented, which suggests that the need for research is more than meets the eye.

**The originality and scientific innovation of the research** shows that food security is not just a statistical issue, but its social, demographic - age, etc. by analyzing it from other aspects, it emphasizes the importance of these aspects and offers solutions for the problems that currently exist in the fields or are expected to exist in the future.

***Keywords: food, security, food security, hunger, social, economic, solutions, difficulties, problems, socio-economic, economic-social***